Qönçə Mirzəyeva Mərdan [86]

# YENİYETMƏLƏR ARASINDA GENİŞ YAYILAN NARKOMANİYAYA QARŞI GÖRÜLƏN ƏMƏLLİ İŞLƏR

**GİRİŞ:** İnsanın psixi və fiziki vəziyyətini dəyişən, asılılıq yarada bilən, narkotik vasitələrin və psixotrop maddələrin siyahısına daxil edilmiş kimyəvi və bitki tərkibli maddələr **psixoaktiv maddələr** adlanır. Məsələn, heroin, metodon, çətənə preparatları, kokain, tiryək və s.

Psixoaktiv maddələrin istifadəsi nəticəsində, yeniyetmə yaş dövründə və eləcə də, digər yaşlarda olan, daha kiçik yaşlı uşaqlar və ya 18 yaşdan böyük olan şəxslərdə ciddi asılılıqlar və patoloji problemlər yaranır. Bunlara psixi, fiziki və bioloji problemlərin yaranması eləcə də, davranış və şəxsiyyət problemləri (deqradasiya-şəxsiyyətin süqutu) yarana bilir.

Günlər ötdükcə narkotik vasitələr və psixotrop maddələrdən asılılıq hallarına daha çox rast gəlinir. Bu kimi halların yayılmasında bir sıra faktorlar özünü göstərir.

Bu faktorlara aiddir:

1. Sosial mühitin təsiri
2. Ailədaxili problemlər
3. Təhsil və ya məlumat azlığı
4. Maraq dairəsinin genişliyi
5. Təbliğ və ya media təsiri
6. İctimai normalarla bağlı problemlər
7. Mailiyyə problemləri
8. Mütəmmadi dəstək sisteminin zəifliyi
9. Sosial statusun artırılma arzusu
10. Fiziki sağlamlıqla bağlı problemlər

1. **Sosial mühitin təsiri-** Yeniyetmələrin əksəriyyəti şəxsiyyətin formalaşma dövründə hər hansı sosial qrupa aid olmaq üçün can atırlar. Həmin yeniyetmələrin seçimi adətən, sinif yoldaşları, qonşular və ya qohumlardan həmyaşıdları olur. Lakin, bir sıra hallarda yeniyetmələrdə sosial seçim hallarında kənaraçıxmalar baş verə bilir. Onlar qeyri-iradi şəkildə müəyyən kriminogen qrupların təsiri altına düşür və bu onların sonrakı həyatına ciddi mənfi yönlü təsir göstərir.

2. **Ailə problemləri-** Baxmayaraq ki, Dövlət Statistika Komitəsinin məlumatlarında narkotik maddələr və onların qanunsuz dövriyyəsi ilə bağlı cinayətlərdə iştirak etmiş və azadlıqdan müəyyən müddətə məhkum olunmuş yeniyetmələr hər iki valideynə sahib olan şəxslərdir, problemə dünya miqyasında statistikalarda bir çox yeniyetmə cinayətkarın ailə problemləri olduğu öz əksini tapır. Bu problemlərdən ən çox rast gəlinənləri valideynlərin boşanması halları və ya ölümüdür. Bu kimi sosial-travmatik hadisələr yeniyetmə psixologiyasında boşluq yaradır və onun meyillərinə mənfi təsir göstərir.

3. **Təhsil və ya məlumat azlığı-** Ölkəmizdə xüsusilə yeniyetmələrin deviant davranışlarının qarşısının alınması məqsədilə müxtəlif maarifləndirmə tədbirləri həyata keçirilir. Bu tədbirlərə narkotik vasitələr və psixotrop maddələrin mənfi təsirləri, onlardan istifadə zamanı baş verəcək hadisələrlə bağlı antitəbliğatlar aid edilir. Lakin, 14-17 yaşlı yeniyetmələr arasında aparılan sorğudan məlum olur ki, maarifləndirmə tədbirlərinin intensiv şəkildə həyata keçirilməsinə baxmayaraq, 20 nəfər yeniyetmənin 85%-i həmin maddələri adları ilə tanımır.

4. **Maraq dairəsinin genişliyi-** Yeniyetmələrin 40%-nin fikrinə görə narkotikin yayılma səbəbi, yeniyetmələrin geniş maraq dairəsinin olmasıdır. Bəzi hallada yeniyetmələr narkotik vasitələr və ya psixotrop maddələrə rekreativ baxımdan yanaşırlar. Yəni, həmin tip maddələri "əylənmək" üçün istifadə etməyə başlayırlar və bu hal zaman keçdikcə asılılığın yaranmasına səbəb olur.

5. **Təbliğ və ya media təsiri-** Yeniyetmələrin böyük əksəriyyəti sosial media platformalarına asanlıqla giriş əldə edə bildikləri üçün intensiv olaraq bu cür maddələrin istifadəsi ilə bağlı təbliğat xarakterli reklamlara və ya satış, eyni zamanda da, kuryerliklə bağlı məlumatlara əlçatanlığa sahib olurlar. Nəticədə həmin yeniyetmələr narkotik vasitələrin qurbanı olmaq kimi böyük təhlükə ilə üz-üzə qalırlar. İntensiv şəkildə anti-təbliğatlaın aparılmasına baxmayaraq, narkotik vasitələrin qurbanı olan şəxslərin sayı günlər keçdikcə artmaqda davam edir.

6. **İctimai normalarla bağlı problemlər-** Narkotik vasitələr və ya psixotrop maddələr istifadə edən şəxslər, əksəriyyət hallarda ictimai olaaq qəbul olunmamaq problemi ilə üzləşirlər. Bu nəticə etibarilə onların cəmiyyətdən diskriminasiya olunmasına və dezadaptasiyaya gətirib çıxarır. Eyni zamanda da, bəzi hallada reabilitasiya müəssisələrinə müraciət etməklə bağlı sosial qorxularla üzləşən yeniyetmələr, bu problemin qarşısını almaqda çətinlik çəkir və daha ağır fəsadlarla üzləşirlər.

7. **Mailiyyə problemləri-** Disfunksionalailəyə sahib olan yeniyetmələr bəzi hallada maddi baxımdan qazanc əldə etmək məqsədilə narkotik maddələrin ticarəti kimi kriminal cinayətlərdə ortaqlıq etməyə başlayırlar. Bu maddələrlə birbaşa təmas şəraitində olmaq, onların psixologiyasına təhrikedici faktor kimi təsir edir və zamanla, narkotik ticarəti ilə məşğul olan yeniyetmələr həmin maddələrin daimi istifadəçisinə çevrilir.

[86] **Bakı Dövlət Universiteti Sosial pedaqogika ixtisası üzrə. II kurs magistrantı.** gonchamirzayeva@gmail.com

8. **Mütəmmadi dəstək sisteminin zəifliyi-** Son illər orta məktəblərdə artan psixoloji dəstək sisteminə və proqramlara baxmayaraq, yeniyetmələr arasında narkotik istifadəsi və asılılıq hallarına daha çox rast gəlinir. Bu tendensiyanın başlıca səbəblərindən biri də, mütəmmadi olaraq tətbiq olunan dəstək sisteminin olmamasıdır. Ümumtəhsil məktəblərində psixoloq fəaliyyətinin həyata keçirilməsi zamanı yaranan problemlədən biri də, konfidensiallığın qorunmasıdır ki, bu xüsusiyyətə diqqət yetirilməməsi yeniyetmələri dəstək sistemindən uzaqlaşmağa vadar edir**.**

9. **Sosial statusun artırılma arzusu-** Yeniyetmələr yaş dövrünün pedaqoji-psixoloji xüsusiyyətlərinə əsasən, onlar özlərini sinif yoldaşlarına və digər yaş kateqoriyasından olan insanlara sübut etmək arzusunda olurlar. Narkotik vasitələrə çətin əlçatanlığın olması və anti-təbliğatın aparılması, bəzi yeniyetmələr üzərində əks təsirə malik olur və onların bu kateqoriyadan maddələri istifadə etməsinə səbəb olur.Beləliklə də, yeniyetmələr, həmin maddələri özünüsübut vasitəsi kimi qəbul etməyə başlayır və diqqət çəkdikləri üçün, eyni zamanda da, asılılıq yarandığı üçün istifadədən imtina edə bilmirlər.

10. **Fiziki sağlamlıqla bağlı problemlər-** Bəzi narkotik vasitələr və ya psixotop maddələr ağrıkəsici olaraq istifadə olunur. Bu maddələrdən ən çox istifadə olunanları morfin və kodeindir. Bir çox ağır əməliyyatlardan (onurğa sütunu, orqan transplantasiyası və s.) sonra həkimlərin həmin maddələrin istifadəsi ilə bağlı göstərişləri həyata keçirilir. Bu vasitələrin istifadəsinin dayandırılması tədricən aparılmalı olduğu üçün bəzi hallarda orqanizmin həmin maddələrə yüksək adaptasiyası yaranır və bu hal sonradan narkotik istifadəsini şərtləndirən amilə çevrilir.

**NƏTİCƏ:** Azərbaycanda istifadə edilən ən çox yayılmış psixoaktiv maddələrə aşağıdakıla daxildir:

1. **Heroin**-Eyni zamanda, elmi olaraq diasetilmorfin və ya diamorfin kimi adlandırılır. Lakin, istifadəçi şəxslər tərəfindən "poroşok" və ya "qera" kimi adlandırılır. Morfin və tiryəkdən kimyəvi çevrilmələr vasitəsilə əldə oluna bilir. Müxtəlif rənglərdə-ağ, sarımtıl, qəhvəyi, qara və s. rast gəlinir. Əldə olunma üsulu və tərkibində olan digər kimyəvi qarışıq və əlavələrdən asılı olaraq rəng dəyişmələri baş verir.

2. **Kannabis**-Çətənə bitkisinin yarpaqlarından hazırlanır. Marixuana, istifadəçi şəxslər tərəfindən daha çox "nəşə" adlandırılır. Marixuanaya yaşıl və ya qəhvəyi rənglərdə rast gəlinir. Kannabis qətranı isə çətənə bitkisinin çiçəklərindən əldə edilir və ona əsasən, qara rəngdə təsadüf edilir. Toz halında rast gəlindiyi üçün asanlıqla nəfəs yolları ilə qəbul oluna bilir. Eyni zamanda, kannabis qətranının yağı istifadəçi şəxslər tərəfindən daxilə qəbul edilərək istifadə edilir.

3. **Kokain**-İstifadəçi şəxslər tərəfindən "koks" və ya "qar" adı ilə tanınır. Bu narkotik vasitənin hazırlanması üçün kokain bitkisinin kolundan və yarpaqlarından istifadə edirlər. Forma baxımından toz və ya qarşəkilli olduğu üçün onu bu cür adlandırırlar. Güclü antiseptik və anestetik xassəyə malikdir. Keyidicilik məqsədilə istifadə edilir. Kokain, əsasən, buxarların nəfəs yollarına qəbul edilməsi yolu ilə istifadə edilir.

4. **Amfetamin növləri-** Bu kateqoriyadan olan narkotik vasitələr sintetik yollarla hazırlandıqları üçün daha güclü və uzunmüddətli effektə malik olurlar. Ən çox yayılan növlərinə amfetamin, yəni, istifadəçi şəxslər tərəfindən daha çox "ekstazi" və ya "portağal" adı ilə tanınan vasitə və metamfetamin, daha çox "şüşə" və "kristal" adı ilə tanınan maddə daxildir. Bu tip maddələrin bir növündən digərini asanlıqla kimyəvi üsullarla əldə etmək mümkündür. Lakin, onlaın arasında ən geniş yayılanı metamfetamindir. Bu vasitələr həblər, tozşəkilli, sirop və ya çox az hallarda inyeksiya yolu ilə qəbul edilə bilir. Ağ, bənövşəyi və qara rənglərdə rast gəlinir. Bu maddələrin rəng təyinedicisi tərkibində olan qarışıqlardır. Məhlul formasında olan növləri venadaxili inyeksiya yolu ilə, digər hallarda isə, həbşəkilli formalar daxilə qəbul edilməklə və ya kristallar əridildikdən sonra buxarlarının nəfəs yolları vasitəsilə qəbul edilməsi üsulu ilə istifadə olunur. Bu maddələr bəzi şəxslər tərəfindən iysiz, acı istiot dadlı kimi təsvir edilsə də, digərləri tərəfindən şirin dadlı kimi təsvir olunur. Güclü stimulyator maddələrə aid olan kimyəvi birləşmədir. Laborator olaraq gizli şəkildə istehsal edilir. Azərbaycan Respublikası Prezidentinin 2005-ci il 28 iyun tarixli 960 IIQ saylı sərəncamı ilə ölkə ərazisində dövriyyəsi (həmçinin, prekursorlarının) qadağan edilmişdir.

5. **LSD-** Narkotik vasitələr və psixotrop maddələr arasında mövcud olan ən güclü toksiki və halüsinogen xassəyə malik olan maddələr siyahısındadır. Tibbi məqsədlərlə istifadəsi qəti olaraq qadağan edilmişdir. İstifadəçi şəxslər arasında LSD istifadəçilərinə az hallada rast gəlinir. Daha çox "qənd" və ya "kislota" adı ilə tanınır. Qoxusuz və dadsız, eyni zamanda, xüsusi rəngə malik olmayan maddədir. Kristal halda mövcud olur və maye şəklində də istifadə edilir. Həblər və ya kapsullar şəklində, toz formasında və ya kağızlara hopdurulmuş şəkildə qeyri-qanuni olaraq qara bazarda satılır. Həb və ya kapsullar udulmaqla daxilə qəbul edilir. Digər formalar isə, maye şəklində olduqda venadaxili və ya kağız şəklində hopdurulmuş forma isə dil üzərinə qoyulmaqla istifadə edilir.

6. **Meskalin-** Psixoaktiv maddələr siyahısında ən çox rast gəlinən növlərdən biridir. Peyot kaktusu bitkisinin tərkibində təbii olaraq toplanır.Halüsinogen təsirə malikdir. Toz, həb, qurudulmuş və ya kaktus hissələri şəklində qeyri-qanuni yollarla satılır. İsitfadəçi şəxslər tərəfindən daha çox "şeh" adı ilə tanınır. Bütün formaları daxilə qəbul edilməklə istifadə edilir.

7. **Barbituratlar-** Tibbi məqsədlərlə istifadə edilən dərman maddələrinin tərkibində minlərlə müxtəlif adlarda istehsal edilir. Həb, kapsul, inyeksiya üçün hazırlanmış məhsullar şəklində istehsal edilir. İstifadəçi şəxslər tərəfindən daxilə qəbul edilməklə istifadə olunur. Məhlul halında formaları isə venadaxili inyeksiya şəklində istifadə edilir.

8. **Benzodiazepinlər-**Bu maddələr mərkəzi sinir sisteminə ləngidici təsir göstərməsi ilə tanınır. Sintetik üsullarla hazırlanır və satışa buraxılır. Həblər, kapsullar, tozşəkilli və ya maye şəklində venadaxili istifadə üçün nəzərdə tutulmuş formada buraxılır. Ən çox yayılmış növündən biri diazepamdır. Həb və kapsullar daxilə qəbul edilməklə, maye şəklində olan formaları isə venadaxili inyeksiya şəklində istifadə edilir.

**ƏDƏBİYYAT SİYAHISI**

1. https://nida.nih.gov/sites/default/files/cadchart.pdf
2. https://www.unodc.org/documents/wdr/WDR_2010/2.0_Drug_statistics_and_Trends.pdf
3. https://medicalguidelines.msf.org/sites/default/files/pdf/guideline-339-en.pdf
4. https://www.unodc.org/res/WDR-2023/WDR23_Exsum_fin_DP.pdf
5. https://ocindex.net/assets/downloads/2023/english/ocindex_profile_azerbaijan_2023.pdf


**Açar sözlər:** Psixotrop maddələr, narkotik vasitələr, asılılıq problemləri, anti-təbliğat, narkotik ticarəti, “adaptasiya” problemi

**Key words:** Psychotropic substances, narcotic drugs, addiction problems, anti-propaganda, drug trafficking, "Adaptation" problem

**Ключевые слова:** Психотропные вещества, наркотические средства, проблемы зависимости, антипропаганда, наркоторговля, проблема «адаптации»

## XÜLASƏ

### Yeniyetmələr arasında geniş yayılan narkomaniyaya qarşı görülən əməlli işlər

Dünyada narkotik və psixotrop maddələrin istifadəsi günlər ötdükcə əhəmiyyətli dərəcədə artır. Yeniyetmələr arasında da narkotik və ya psixotrop maddələrin istifadəsi hallarına, habelə, qanunsuz dövriyyəyə cəlb olunmalarına rast gəlinir. Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 14-17 yaşlı yeniyetmələr arasında narkotik vasitələr və psixotrop maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlər 2021-ci ildə 11 nəfər, 2022-ci ildə 13 nəfər, 2023-cü ildə isə 16 nəfər olmuşdur. 2023-cü il statistikasına əsasən, həmin yeniyetmələr arasında qızlara rast gəlinməyib. Cinayət törətdiyinə görə məhkum olunan 16 yeniyetmədən, 11 nəfəri ailədə hər iki valideynə sahibdir. Həmin yeniyetmələrin 60%-ə qədərinə 5 ildən yuxarı, təxminən 40%-nə isə, 5 ilə qədər azadlığın məhdudlaşdırılması növündə cəza təyin edilib.Bu statistikalardan görünür ki, ailədə hər iki valideynə sahibolma hallarında belə, yeniyetmələr arasında narkomaniya, eləcə də, narkotik maddələrin qanunsuz dövriyyəsi ilə bağlı cinayətlər baş verir.

## SUMMARY

### Effective work against the spread of drug addiction among teenagers

The use of narcotic and psychotropic substances in the world is significantly increasing over time. Instances of drug or psychotropic substance use, as well as involvement in illegal trafficking, are also observed among adolescents. According to the State Statistics Committee, the number of crimes related to the illegal circulation of narcotic and psychotropic substances among adolescents aged 14-17 was 11 in 2021, 13 in 2022, and 16 in 2023. In the statistics for 2023, no girls were reported among these adolescents. Of the 16 adolescents convicted of crimes, 11 had both parents. Approximately 60% of these adolescents received sentences of more than 5 years, while about 40% were sentenced to up to 5 years of restricted freedom. These statistics indicate that even in cases where adolescents have both parents, instances of drug addiction and crimes related to the illegal circulation of narcotic substances still occur.

## РЕЗЮМЕ

### Эффективная работа против распространения наркомании среди подростков

Использование наркотических и психотропных веществ в мире значительно увеличивается с течением времени. Случаи употребления наркотиков или психотропных веществ, а также вовлеченность в незаконный оборот наблюдаются и среди подростков. Согласно данным Государственного статистического комитета, количество преступлений, связанных с незаконным оборотом наркотических и психотропных веществ среди подростков в возрасте 14-17 лет, составило 11 в 2021 году, 13 в 2022 году и 16 в 2023 году. В статистике за 2023 год не было зарегистрировано случаев среди девочек. Из 16 подростков, осужденных за преступления, 11 имели обоих родителей. Примерно 60% этих подростков получили сроки более 5 лет, в то время как около 40% были приговорены к ограничению свободы на срок до 5 лет. Эти статистические данные указывают на то, что даже в случаях, когда подростки имеют обоих родителей, все равно происходят случаи наркомании и преступления, связанные с незаконным оборотом наркотических веществ.

**Rəyçi:** p.e.f.d. Vəfa Çıraqova Məsim